*Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2005-ci il 4 iyul tarixli 13/38 saylı Qərarı ilə təsdiq edilmiş, Mərkəzi Seçki Komissiyasının 2010-cu il 22 aprel tarixli 9/46 saylı, 2015-ci il 15 may tarixli 9/81 saylı və 2019-cu il 15 mart tarixli 1/2 saylı qərarları ilə dəyişikliklər edilmişdir.*

# Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə vətəndaşların öz təşəbbüsü ilə deputatlığa namizədliyinin irəli sürülməsi, seçicilərin təşəbbüs qruplarının yaradılması və onlar tərəfindən deputatlığa namizədin irəli sürülməsi qaydaları haqqında

# T Ə L İ M A T

Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər zamanı vətəndaşların öz təşəbbüsü ilə və ya aktiv seçki hüququ olan vətəndaşların yaratdıqları təşəbbüs qrupları tərəfindən deputatlığa namizədliyin irəli sürülməsi Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra – Seçki Məcəlləsi) 53-cü, 146-cı maddələri ilə və bu Təlimatla nizama salınır.

## 1. Ümumi müddəalar

1.1. Seçki dairəsi üzrə seçkilərdə namizədlər bu seçkilərin təyin edilməsi haqqında sərəncam rəsmi dərc olunduqdan sonra irəli sürülür.
1.2. Deputatlığa namizədlər passiv seçki hüququna malik olan və Azərbaycan Respublikası Konstitusiyasının 85-ci maddəsinin tələblərinə cavab verən vətəndaşların özləri, seçicilərin təşəbbüs qrupları, habelə siyasi partiyalar, siyasi partiyaların blokları tərəfindən irəli sürülə bilərlər.

## 2. Öz təşəbbüsü ilə deputatlığa namizədliyini irəli sürən vətəndaş (və ya onun səlahiyyətli nümayəndəsi) müvafiq dairə seçki komissiyasına aşağıdakı sənədləri təqdim etməlidir:

2.1. deputatlığa namizədliyin irəli sürülməsinə dair bildiriş (Təlimata 1 saylı əlavə);
2.2. Seçki Məcəlləsinin 53-cü maddəsinin tələblərinə uyğun tərtib edilmiş öhdəlik ərizəsi (Təlimata 2 saylı əlavə) (ərizədə deputatlığa namizədliyi irəli sürülmüş şəxsin soyadı, adı, atasının adı, onun doğum tarixi, yaşayış yerinin ünvanı, təhsili, şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriya və nömrəsi, əsas iş və ya xidmət yeri, tutduğu vəzifə (bu olmadıqda – fəaliyyət növü), məhkumluğu, vətəndaşlığı və başqa dövlətlər qarşısında öhdəliyinə dair məlumatlar, habelə deputat seçiləcəyi halda, həmin vəzifə ilə uzlaşmayan fəaliyyətə xitam verəcəyi barədə öhdəliyi göstərilməlidir);
2.3. namizəd tərəfindən səlahiyyətli nümayəndə təyin edilibsə, həmin

səlahiyyətli nümayəndənin notariat qaydasında təsdiq edilmiş vəkalətnaməsi (Təlimata 3 saylı əlavə);

2.4. namizəd öz ərizəsində siyasi mənsubiyyətinə dair məlumat daxil edibsə, bu barədə təsdiqedici sənəd (*belə halda, namizəd mənsub olduğu siyasi partiyanın 5 sözdən çox olmayan adla adlandırılmasını müvafiq seçki komissiyası ilə razılaşdırır. Ərizədə göstərilmiş siyasi partiya namizədi öz sıralarından xaric edibsə və müvafiq seçki komissiyasına bildiriş göndəribsə, həmin bildiriş alındıqdan sonra həmin namizədlə əlaqədar siyasi partiyanın adından istifadə edilə bilməz*);

2.5. dairə seçki komissiyasına təqdim edilmiş sənədlərin qəbul edilməsi barədə yazılı arayış həmin sənədləri təqdim edən namizədə və ya onun səlahiyyətli nümayəndəsinə verilir (Təlimata 4 saylı əlavə);

2.6. dairə seçki komissiyası təqdim edilmiş sənədlərə 5 gün müddətində baxır, namizədə və ya onun səlahiyyətli nümayəndəsinə namizədliyin irəli sürülməsinin təsdiq olunub-olunmaması barədə qərar təqdim edir.

## 3. Seçicilərin təşəbbüs qrupunun yaradılması və deputatlığa namizədliyin irəli sürülməsi

3.1. Seçicilərin təşəbbüs qrupunu seçki hüququ olan hər bir vətəndaş, yaxud vətəndaşlar 50 nəfərdən az olmayan tərkibdə yarada bilərlər. Bunun üçün onlar öz yığıncağını keçirməlidirlər. Təşəbbüs qrupu yaratmaq istəyən seçicilərin müvafiq seçki dairəsinin ərazi vahidlərində yaşaması faktı əsas götürülür. Təşəbbüs qrupu yaratmaq istəyən vətəndaş və ya vətəndaşlar tərəfindən bələdiyyə qurumunun rəhbərliyinə və ya ərazi üzrə icra hakimiyyətinin yerli nümayəndəsinə yığıncaq keçirmək üçün yer ayrılması barədə yazılı müraciət edilə bilər. Həmçinin seçicilərin təşəbbüs qrupunun yığıncağı seçicilərin yaşayış yeri üzrə, icra və bələdiyyə qurumları, o cümlədən digər hüquqi şəxslərin ərazi və binalarında keçirilə bilər. Müvafiq yer müəyyənləşdirildikdən sonra təşəbbüs qrupu yaratmaq istəyən seçicilərə yığıncağın keçirilməsi üçün ayrılmış yer və vaxt barədə məlumat verilir.

3.2. Yığıncaqda aşağıdakı məsələlər müzakirə olunur:

3.2.1. seçicilərin təşəbbüs qrupunun yaradılması və adlandırılması;

3.2.2. qrupu təmsil edəcək şəxsin (təşəbbüs qrupunun nümayəndəsi) müəyyən edilməsi (bu şəxs iclasın sədri və ya katibi ola bilər);

3.2.3. deputatlığa namizədliyin irəli sürülməsi;

3.2.4. namizədliyin irəli sürülməsinin təsdiq edilməsi üçün dairə seçki komissiyasına bildirişlə müraciət edilməsi.

3.3. Yığıncağın gündəliyinə çıxarılaraq müzakirə edilmiş hər bir məsələ barədə qərar qəbul olunur və yığıncağın protokolu tərtib edilir. Protokolu iclasın sədri və katibi imzalayır. İclasın protokolunun həmin qurumların, o cümlədən iclasın keçirildiyi yerin məxsus olduğu hüquqi şəxslərin möhürü ilə möhürlənməsi də mümkündür.

**3.4. Deputatlığa namizədin seçicilərin təşəbbüs qrupu tərəfindən irəli sürülməsinin təsdiq edilməsi üçün müvafiq dairə seçki komissiyasına aşağıdakı sənədlər təqdim olunmalıdır:**

3.4.1. seçicilərin təşəbbüs qrupunun yaradılması və namizədliyin irəli sürülməsi barədə yığıncağın protokolu (Təlimata 5 saylı əlavə);

3.4.2. namizədin irəli sürülməsinə təşəbbüs edilməsi barədə bildiriş (Təlimata 6 saylı əlavə);

3.4.3. Seçki Məcəlləsinin 53-cü maddəsinin tələblərinə uyğun tərtib edilmiş öhdəlik ərizəsi (Təlimata 2 saylı əlavə) (ərizədə deputatlığa namizədliyi irəli sürülmüş şəxsin soyadı, adı, atasının adı, onun doğum tarixi, yaşayış yerinin ünvanı, təhsili, şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriya və nömrəsi, əsas iş və ya xidmət yeri, tutduğu vəzifə (bu olmadıqda – fəaliyyət növü), məhkumluğu, vətəndaşlığı və başqa dövlətlər qarşısında öhdəliyinə dair məlumatlar, habelə deputat seçiləcəyi halda, həmin vəzifə ilə uzlaşmayan fəaliyyətə xitam verəcəyi barədə öhdəliyi göstərilməlidir);

3.4.4. namizəd tərəfindən səlahiyyətli nümayəndə təyin edilibsə, səlahiyyətli nümayəndənin notariat qaydasında təsdiq edilmiş vəkalətnaməsi (Təlimata 3 saylı əlavə);

3.4.5. namizəd öz ərizəsində siyasi mənsubiyyətinə dair məlumat daxil edibsə, bu barədə təsdiqedici sənəd (belə halda, namizəd mənsub olduğu siyasi partiyanın 5 sözdən çox olmayan adla adlandırılmasını müvafiq seçki komissiyası ilə razılaşdırır. Ərizədə göstərilmiş siyasi partiya namizədi öz sıralarından xaric edibsə və müvafiq seçki komissiyasına bildiriş göndəribsə, bu bildiriş alındıqdan sonra həmin namizədlə əlaqədar siyasi partiyanın adından istifadə edilə bilməz).

3.5. Dairə seçki komissiyasına təqdim edilmiş sənədlərin alınması barədə yazılı arayış həmin sənədləri təqdim etmiş namizədə və ya onun səlahiyyətli nümayəndəsinə, seçicilərin təşəbbüs qrupunun nümayəndəsinə verilməlidir (Təlimata 4 saylı əlavə).

3.6. Dairə seçki komissiyasına təqdim edilmiş sənədlərə 5 gün müddətində baxılır, namizədə və ya onun səlahiyyətli nümayəndəsinə, seçicilərin təşəbbüs qrupunun nümayəndəsinə namizədin irəli sürülməsinin təsdiq olunub-olunmaması barədə qərar təqdim edilir.

*Təlimata 1saylı əlavə*

____ saylı ______________________
__________________ seçki dairəsinin
dairə seçki komissiyasına

**Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Azərbaycan Respublikası vətəndaşının öz təşəbbüsü ilə deputatlığa namizədliyini irəli sürməsi haqqında**

**B İ L D İ R İ Ş**

Mən, ____________________________________________ yaşayan,
*(yaşayış yerinin ünvanı)*
_______________________malik olan, ___________________________
*(şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriya və nömrəsi)* *(əsas iş və ya xidmət yeri, tutduğu vəzifə (bu olmadıqda – fəaliyyət növü))*
işləyən və ya fəaliyyət göstərən, “____” ____________ ______ il tarixdə
*(doğum tarixi)*
anadan olan Azərbaycan Respublikasının vətəndaşı _________________
_____________________________________________________________
*(namizədin soyadı, adı, atasının adı)*
Azərbaycan Respublikası Seçki Məcəlləsinin 53-cü və 146-cı maddələrinə uyğun olaraq ________________təyin olunmuş Azərbaycan Respublikasının
*(seçkinin keçiriləcəyi tarix)*
Milli Məclisinə seçkilərdə deputatlığa namizədliyimi irəli sürürəm.

___________________________________________ ünvanında yaşayan,
*(yaşayış yerinin ünvanı)*
_____________________________ malik olan _____________________
*(şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriya və nömrəsi)* *(soyadı, adı və atasının adı)*
__________________________________________ tərəfimdən səlahiyyətli

nümayəndə təyin edilmişdir.*

Bildirişə namizədin öhdəlik ərizəsi əlavə olunur.

**Namizəd**
və ya
**Səlahiyyətli nümayəndə**

| | | |
|---|---|---|
| | ____________ *(imza)* | ____________________________ *(inisialı və soyadı)* |
| | ____________ *(imza)* | ____________________________ *(inisialı və soyadı)* |

“____” ____________ 20___ il
*(bildirişin verilmə tarixi)*

**Qeyd:** *bu bildirişin surəti Azərbaycan Respublikası Seçki Məcəlləsinin 157.3-cü maddəsinə uyğun olaraq dairə seçki komissiyası tərəfindən təsdiq edilərək namizədə və ya onun səlahiyyətli nümayəndəsinə verilir.*

_________
***** *Bu sətir namizədin səlahiyyətli nümayəndəsi təyin edildikdə doldurulur.*

*Təlimata 2 saylı əlavə*

_____ saylı ___________________

seçki dairəsinin dairə seçki komissiyasına

Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə deputatlığa namizədliyi irəli sürülmüş vətəndaşın

## ÖHDƏLİK ƏRİZƏSİ

Mən, "___" ___________ ___ il tarixdə anadan olmuş _____________
*(doğum tarixi)*
____________________________________________________ yaşayan,
*(yaşayış yerinin ünvanı)*
_________________________________malik olan, ______________təhsilli,
*(şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriya və nömrəsi)* *(təhsil haqqında məlumat)*
____________________________________ işləyən və ya fəaliyyət göstərən,
*(əsas iş və ya xidmət yeri, tutduğu vəzifə (bu olmadıqda – fəaliyyət növü))*
__________________________________________ bildirirəm ki, ödənilməmiş
*(namizədin soyadı, adı, atasının adı)*
və ya üzərimdən götürülməmiş məhkumluğum _______________________ .
*(olub-olmamasına dair məlumat)*

Ödənilməmiş və ya üzərindən götürülməmiş məhkumluğu olduqda:

________________________________________________________________
*(Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddəsinin adı və*
________________________________________________________________
*nömrəsi, xarici ölkədə cinayət məsuliyyəti yaradan əməl olmuşdursa və*
________________________________________________________________
*bu haqda qanuni qüvvəyə minmiş məhkəmə hökmü çıxarılmışdırsa və bu əməl*
________________________________________________________________
*Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulan cinayət məsuliyyəti yaradırsa,*
________________________________________________________________
*xarici ölkənin müvafiq qanununun adı)*

Azərbaycan Respublikasının vətəndaşıyam, seçkilərdə iştirak etmək hüququna malikəm, ikili vətəndaşlığım və başqa ölkələr qarşısında öhdəliklərim _____________________ .
*(olub-olmamasına dair məlumat)*

İkili vətəndaşlığı və ya başqa ölkələr qarşısında öhdəliyi olduqda:

______________________________________________________________
*(həmin ölkənin adı və öhdəliyin məzmunu)*

_________________________ tarixdə keçiriləcək Azərbaycan Respublikasının
*(seçkinin keçiriləcəyi tarix)*

Milli Məclisinə seçkilərdə deputatlığa namizədliyimin irəli sürülməsinin mənim iradəmə uyğunluğunu bildirirəm və deputat seçiləcəyim halda, həmin vəzifə ilə uzlaşmayan fəaliyyətə xitam verəcəyimi öhdəmə götürürəm.

_______________________________________________________ üzvüyəm,
*(mənsub olduğu siyasi partiyanın adı və abreviaturası)*

deputatlığa namizədliyim qeydə alındığı halda, seçki bülletenində siyasi partiyaya mənsubiyyətim _____________________________________ .
*(göstərilib-göstərilməməsinə dair məlumat)*

_____________ ______________________
*(imza)* *(inisialı və soyadı)*

"____" _________________ 20 ___ il

**Qeyd:** *Azərbaycan Respublikası Seçki Məcəlləsinin 40.15-ci maddəsinin tələbinə uyğun olaraq ərizəyə namizədin 3x4 sm ölçüdə iki ədəd rəngli fotoşəkli əlavə edilməlidir.*

*Təlimata 3 saylı əlavə*

# V Ə K A L Ə T N A M Ə

Mən, ____________________________________ yaşayan Azərbaycan
*(yaşadığı yerin ünvanı)*
Respublikasının Milli Məclisinə deputatlığa namizəd (qeydə alınmış namizəd) __________________________________________________________ malik
*(şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyası, nömrəsi və verilmə tarixi)*

______________________________________________________________
*(soyadı, adı, atasının adı)*
_____________________________________________________ yaşayan,
*(səlahiyyətli nümayəndənin yaşayış yerinin ünvanı)*
__________________________________________________________ malik
*(şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyası, nömrəsi və verilmə tarixi)*

______________________________________________________________
*(iş yeri, vəzifəsi və ya xidmət yeri (bunlar olmadıqda – fəaliyyət növü))*

______________________________________________________________
*(soyadı, adı, atasının adı)*
“___”__________ 20___ il tarixə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə mənim səlahiyyətli nümayəndəm qismində qanunvericiliklə nəzərdə tutulmuş hüquq və vəzifələri yerinə yetirməyi həvalə edirəm.

__________________________________ ________________
*(namizədin (qeydə alınmış namizədin) soyadı, adı və atasının adı)* *(imza)*

**Qeyd:** *1. Vəkalətnamə notariat qaydasında təsdiq olunmalıdır.*
*2. Səlahiyyətli nümayəndənin səlahiyyət dairəsini həmin səlahiyyəti verən şəxs müəyyən edir. Belə olduqda, vəkalətnamədə bu hal öz əksini tapmalıdır.*

*Təlimata 4 saylı əlavə*

# A R A Y I Ş

"____"__________20___ il

Saat _________

Verilir ____________________________________________________

*(sənədləri təqdim edən şəxsin soyadı, adı, atasının adı)*

ondan ötrü ki, o, həqiqətən ______________________________________

*(namizədin soyadı, adı, atasının adı)*

Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə deputatlığa namizədliyinin irəli sürülməsinin təsdiq edilməsi üçün aşağıdakı sənədləri ____ saylı ______________________________ seçki dairəsinin dairə seçki

*(seçki dairəsinin adı)*

komissiyasına təqdim etmişdir:

1.
2.
3.
4.
5.
6.

**Dairə seçki komissiyasının sədri** __________ ______________________

*(imza)* *(soyadı, adı, atasının adı)*

M.Y.

**Dairə seçki komissiyasının üzvü** __________ ______________________

*(imza)* *(soyadı, adı, atasının adı)*

**Sənədləri təqdim edən şəxs** __________ ______________________

*(imza)* *(soyadı, adı, atasının adı)*

**Qeyd:** *sənədləri dairə seçki komissiyasına namizəd, onun səlahiyyətli nümayəndəsi, təşəbbüs qrupunun nümayəndəsi təqdim edə bilər.*
*Bu arayış 2 nüsxədən ibarət tərtib edilməli, 1 nüsxəsi dairə seçki komissiyasında qalmalı, digər nüsxəsi isə sənədləri təqdim edən şəxsə verilməlidir.*

*Təlimata 5 saylı əlavə*

**Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə seçicilərin təşəbbüs qrupunun yaradılması və deputatlığa namizədin irəli sürülməsi barədə yığıncağın**

**P R O T O K O L U**

_____________________________ "____" _________20___ il

*(yığıncağın keçirildiyi yer – rayon, şəhər, şəhərdə rayon, qəsəbə, kənd)*

Yığıncaqda iştirak edirlər: ________ nəfər
*(rəqəmlə)*

Yığıncağın sədr və katibinin seçilməsi

Yığıncağa sədrlik etmək üçün ______________________ namizədliyi
*(soyadı, adı, atasının adı)*

təklif edildi və səsə qoyuldu.

Səsvermənin nəticəsi:

lehinə ____________ ________________________________________
*(rəqəmlə)* *(sözlə)*

əleyhinə ____________ ________________________________________
*(rəqəmlə)* *(sözlə)*

bitərəf ____________ ________________________________________
*(rəqəmlə)* *(sözlə)*

Yığıncağa katiblik etmək üçün _____________________ namizədliyi
*(soyadı, adı, atasının adı)*

təklif edildi və səsə qoyuldu.

Səsvermənin nəticəsi:

lehinə ____________ ________________________________________
*(rəqəmlə)* *(sözlə)*

əleyhinə ____________ ________________________________________
*(rəqəmlə)* *(sözlə)*

bitərəf ____________ ________________________________________
*(rəqəmlə)* *(sözlə)*

Yığıncağın sədri ____________________________________ və
*(soyadı, adı, atasının adı)*

katibi _______________________________ seçildi.
*(soyadı, adı, atasının adı)*

Yığıncağın sədri gündəlikdə olan məsələlər barədə yığıncaq iştirakçılarını məlumatlandırır.

**G ü n d ə l i k :**

1. Seçicilərin təşəbbüs qrupunun yaradılması və adlandırılması.
2. Təşəbbüs qrupu nümayəndəsinin seçilməsi (bu şəxs iclasın sədri və ya katibi ola bilər).
3. Deputatlığa namizədin irəli sürülməsi.
4. Namizədliyin irəli sürülməsinin təsdiq edilməsi üçün dairə seçki komissiyasına bildirişlə müraciət edilməsi.

Yığıncağın gündəliyi səsə qoyulur.

lehinə ____________ ____________________________________
*(rəqəmlə)* *(sözlə)*

əleyhinə ____________ ____________________________________
*(rəqəmlə)* *(sözlə)*

bitərəf ____________ ____________________________________
*(rəqəmlə)* *(sözlə)*

Gündəlikdəki məsələlər üzrə çıxış edənlərə söz verilir.

**Çıxış etdilər:**

1. ____________________________________________________________
*(çıxış edənin soyadı, adı, atasının adı və çıxışın qısa məzmunu)*
______________________________________________________________

2. ____________________________________________________________
*(çıxış edənin soyadı, adı, atasının adı və çıxışın qısa məzmunu)*
______________________________________________________________

3. ____________________________________________________________
*(çıxış edənin soyadı, adı, atasının adı və çıxışın qısa məzmunu)*
______________________________________________________________

Gündəliyə çıxarılmış məsələlər müzakirə edildikdən sonra hər bir məsələ ayrılıqda səsə qoyulur. Səsə qoyulmuş hər bir məsələ üzrə səsvermənin nəticəsi protokolda öz əksini tapmalıdır.

**Qərara alındı:**

1. Aşağıdakı tərkibdə təşəbbüs qrupu yaradılsın və __________________ __________________________________ adlandırılsın:

| Sıra sayı | Təşəbbüsçünün soyadı, adı, atasının adı | Doğum tarixi | Yaşayış yerinin ünvanı | Şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriya və nömrəsi | İmza | Tarix |
|---|---|---|---|---|---|---|
| 1 | | | | | | |
| 2 | | | | | | |
| … | | | | | | |
| 50 | | | | | | |
| … | | | | | | |

2. ________________________________________ təşəbbüs qrupunun
*(soyadı, adı, atasının adı)*
nümayəndəsi seçilsin.

3. Təşəbbüs qrupu tərəfindən ___________________________________
*(namizədin soyadı, adı, atasının adı)*
deputatlığa namizədliyi irəli sürülsün.

4. İrəli sürülən namizədliyin təsdiq olunması üçün dairə seçki komissiyasına bildirişlə müraciət edilsin.

**Yığıncağın sədri** _________ ____________________________
*(imza)* *(soyadı, adı, atasının adı)*

**Yığıncağın katibi** _________ ____________________________
*(imza)* *(soyadı, adı, atasının adı)*

**Qeyd:** *seçicilərin təşəbbüs qrupunun yığıncağı idarədə, təşkilatda, müəssisədə keçirilirsə, yığıncağın protokolunun idarənin, təşkilatın, müəssisənin möhüründən istifadə etməklə, yığıncaq yaşayış yeri üzrə keçirilirsə, yığıncağın protokolunun icra nümayəndəliyinin, mənzil istismar sahəsinin, yaxud müvafiq bələdiyyə qurumunun möhüründən istifadə etməklə təsdiq olunması da mümkündür.*

*Təlimata 6 saylı əlavə*

____ saylı _________________________
seçki dairəsinin dairə seçki komissiyasına

**Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə seçicilərin təşəbbüs qrupu tərəfindən deputatlığa namizəd irəli sürülməsi haqqında**

**B İ L D İ R İ Ş**

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 53-cü və 146-cı maddələrinə uyğun olaraq biz – seçicilərin təşəbbüs qrupunun üzvləri:

| Sıra sayı | Təşəbbüsçünün soyadı, adı, atasının adı | Doğum tarixi | Yaşayış yerinin ünvanı | Şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriya və nömrəsi | İmza və tarix |
|---|---|---|---|---|---|
| 1 | | | | | |
| 2 | | | | | |
| … | | | | | |
| 50 | | | | | |
| … | | | | | |

_________________________________ yaşayan, _____________________________________________ malik,
*(yaşayış yerinin ünvanı)* *(şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriya və nömrəsi)*

__________________________________________________________________ işləyən və ya fəaliyyət göstərən,
*(əsas iş və ya xidmət yeri, tutduğu vəzifə (bu olmadıqda – fəaliyyət növü))*

_________________________________________ tarixdə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı
*(doğum tarixi)*

_____________________________________________ ________________________ təyin olunmuş Azərbaycan
*(namizədin soyadı, adı, atasının adı)* *(seçkilərin keçiriləcəyi tarix)*

Respublikasının Milli Məclisinə seçkilərdə deputatlığa namizədliyini irəli sürürük.

__________________________________ yaşayan, ______________________________________________
*(yaşayış yerinin ünvanı)* *(şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriya və nömrəsi)*

malik, __________________________________________ təşəbbüs qrupunun nümayəndəsi təyin edilmişdir.
*(soyadı, adı, atasının adı)*

Təşəbbüs qrupu iclasının protokolu və namizədin öhdəlik ərizəsi əlavə olunur.

“____” ____________ 20_____il
*(bildirişin verilmə tarixi)*

**Qeyd:** *bu bildirişin surəti Azərbaycan Respublikası Seçki Məcəlləsinin 157.3-cü maddəsinə uyğun olaraq dairə seçki komissiyası tərəfindən təsdiq edilərək namizədə və ya onun səlahiyyətli nümayəndəsinə verilir.*